UOT 32; 327

ZÜMRÜD MƏLİKOVA
siyasi elmlər üzrə fəlsəfə doktoru
Bakı Slavyan Universitetinin dosenti,
zumrud.melik@gmail.com
ORCID ID: 0009-0001-1282-888X

TÜRKİYƏNİN MÜASİR GEOSİYASƏTİNDƏ YAXIN ŞƏRQ REGİONU

DOI: https://doi.org/10.36719/2708-065X/105/159-164

Son dövrdə dünyada baş verən siyasi, iqtisadi böhranlar və geosiyasi proseslərin təsiri altında daha da kəskinləşən geniş spektr münaqişələrin olduğu Yaxın Şərq regionu geostrateji əhəmiyyətə malikdir. Türkiyənin geosiyasətində mərkəzi yerlərdən birini tutan Yaxın Şərq regionu etnik və konfessional baxımdan mürəkkəb və ziddiyyətli olub böyük güclərin və regional dövlətlərin siyasi, iqtisadi və hərbi maraqlarının kəsişdiyi geosiyasi məkandır. Yaxın Şərq regionunda baş verən hadisələrin Türkiyənin siyasi, iqtisadi, sosial-mədəni vəziyyətinə və beynəlxalq mövqeyinə bilavasitə təsir göstərməsi, regionun təhlükəsizlik problemlərinin milli maraqlarını təhdid etməsi regionun bu dövlət üçün əhəmiyyətini artıran amillərdəndir. Yaxın Şərq regionu Türkiyə üçün həyati əhəmiyyətli geosiyasi məkan xüsusiyyətini qoruyub saxlamaqdadır. Müasir dövrdə Türkiyənin Yaxın Şərqdəki xarici siyasəti defensive realizmə, milli maraqlarının təmin edilməsi beynəlxalq hüquq prinsiplərinə əsaslanır. Bu araşdırmanın məqsədi Türkiyənin geosiyasətində Yaxın Şərqin əhəmiyyətini, bölgədəki enerji ilə bağlı iqtisadi, ideoloji və siyasi mübarizədəki yerini göstərməkdir.

Açar sözlər: Türkiyə, Yaxın Şərq regionu, geosiyasi maraqlar, geostrateji mövqe, təhlükəsizlik məsələləri.

Giriş. Yaxın Şərq regionu tarix boyu olduğu kimi, müasir dövrdə də dünyanın böyük güclərinin maraqlarının (siyasi, iqtisadi, ideoloji və digər) toqquşduğu region olaraq mühüm geosiyasi əhəmiyyətini qoruyub saxlamaqdadır. Yaxın Şərq regionunda türklərin dominantlığı Anadolu torpaqlarında məskunlaşmaları, öz dövlətlərini yaradaraq genişlənmə siyasəti yeritmələri ilə başladı. Osmanlı imperiyası Yaxın Şərqdə əsrlərlə davam edən etno-dini düşmənçiliyə son qoydu, regionu özünə birləşdirməklə burda vəziyyəti sabitləşdirməyə nail oldu. Osmanlı imperiyasının Yaxın Şərqi nəzarətinə alması regionda uzun müddət davam edən çəkişmələrə son qoydu və Pax Ottomana (latıncadan: Osmanlı dünyası) üsul-idarəsi bərqərar oldu [2]. Eyni zamanda imperiya siyasi baxımdan regionda mövqelərini möhkəmləndirməklə yanaşı, türk-islam sivilizasiyasını da formalaşdırdı. Bugün də Osmanlı mirasının izləri regionda qalmaqdadır.

Üç əsr boyunca Yaxın Şərqdə ən təsirli hərbi güc olan Osmanlı imperiyası bölgədə baş verən bütün hadisələrə müdaxilə edib nüfuzunu qoruyub saxlamış, lakin XIX əsrin son rübündə böyük dövlətlərin bölgəni ələ keçirmək uğrunda rəqabətindən təsirlənərək tədricən nəzarətini itirməyə başladı. Türkiyə Cumhuriyyəti yarandıqdan sonra Yaxın Şərq regionunda bu dövlətin siyasəti passiv, bölgədəki hadisələrə qarışmamaq istiqamətində yeridildi. Lakin soyuq müharibədən sonra, xüsusilə də XXI əsrin əvvəllərindən Yaxın Şərq regionu Türkiyənin milli və geosiyasi maraqları baxımından həyati əhəmiyyətli region elan edildi. Türkiyə strateji mövqeyinə görə mühüm beynəlxalq nəqliyyat marsrutları üzərində yerləşir, qonşu ölkələri və regionları bir-birinə bağlayır. O, bütün yolların qovşağında olduğu üçün Asiya və Avropanın əsas oxunu birləşdirir. Bu xüsusiyyətinə görə Türkiyə həm beynəlxalq ticarətdə, həm də qlobal təhlükəsizlikdə mühüm aktor kimi regional mərkəzlərdən birinə çevrilib. Son dövrdə bunun bariz nümunələrini Qafqazda və Yaxın Şərqdə baş verən hadisələr fonunda görmək olar.

Müasir dövrdə Türkiyə Yaxın Şərq regionunda defensive realizmə əsaslanan xarici siyasət yürüdür. Ədalət və İnkişaf partiyasının iqtidarı dövründə Yaxın Şərq regionu Türkiyənin həyati əhəmiyyətli regionlarından elan olundu və burada möhkəmlənmək səyləri soft power təsiretmə gücü ilə dəstəkləndi. Bu səylər nəticəsiz qalmadı, belə ki, Türkiyə bir sıra geosiyasi uğurlar qazandı. Lakin "Ərəb baharı"

və Suriyada vətəndaş müharibəsinin regionda geosiyasi rəqabəti kəskinləşdirməsi, yeni təhlükəsizlik təhdidlərinin meydana çıxması Türkiyəni baş verən hadisələrə və proseslərə çevik münasibət bildirməsini şərtləndirdi. Türkiyə milli maraqlarını təmin etmək, xüsusilə İraq və Suriyadakı terror qruplaşmalarını zərərsizləşdirmək üçün hərbi əməliyyatlar keçirmək məcburiyyətində qaldı.Müasir dövrdə Türkiyənin təhlükəsizlik qüvvələri zərurət yarandıqda Yaxın Şərqdə beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq antiterror əməliyyatlarını keçirir. Yeni dünya nizamının formalaşması şəraitində daha da önə çıxan Türkiyə geosiyasi xüsusiyyətləri ilə varlığını davam etdirərək qlobal gücə çevrilmək yolunda addımlamaqdadır.

Yaxın Şərq regionun geosiyasi əhəmiyyəti. Yaxın Şərq regionu tarixən böyük dövlətlər və imperiyaların maraqlarında mərkəzi yerlərdən birini tutub. Dünya sivilizasiyasının, dövlətçilik ənənələrinin inkişafında bu region ölkələri və xalqlarının mühüm rolu danılmazdır. Müasir dövrdə region qlobal güclərin enerji mənbələrinə nəzarət uğrunda rəqabət meydanına çevrilib. Yaxın Şərq Şimali Afrika, Uzaq Şərq və Şərqi Afrikanı birləşdirən ticarət yollarının keçdiyi regiondur. Qlobal güclərin bölgədəki enerji ilə bağlı iqtisadi, ideoloji və siyasi mübarizələri Avrasiyanın və dünyanın geosiyasi mənzərəsinin formalaşmasına birbaşa təsir göstərir. Yaxın Şərqin geosiyasi və geostrateji əhəmiyyəti və bu əhəmiyyəti artıran geoiqtisadi xüsusiyyətlər mövcud ziddiyyətlər və inkişaflar nəzərə alınmaqla tarixi təhlil yanaşması ilə araşdırılıb.

Zəngin neft yataqlarının olması regionun geoiqtisadi və geostrateji əhəmiyyətini artırıb. Dünya neft ehtiyatlarının 60%-dən çoxu Yaxın Şərqdə yerləşir. Əvvəllər az əhəmiyyətli geniş səhraların olduğu ərazilər neftin kəşfi ilə getdikcə dəyər qazanmağa başladı. Qlobal ehtiyatların üçdə ikisinə malik olan Yaxın Şərq regionu dünya neftinin əsas mənbəyi olmaqla yanaşı, regional və qlobal gərginliyin mərkəzidir. Tarixdəki dünya müharibələrinin və bugünkü regional münaqişələrin və vətəndaş müharibələrinin əsas səbəbi enerji resursları üzərində hegemonluq yarışıdır. Dünya dövlətlərinin enerji ehtiyaclarının ödənilməsində əhəmiyyətini qoruyub saxlayan Yaxın Şərq qlobal güclərin enerji uğrunda mübarizə apardığı qarşıdurma bölgəsinə çevrilib. XXI əsrin ən mühüm məsələsi Yaxın Şərqdə enerji resursları üzərində oynanan yeni böyük qlobal oyunlardır (Yeni Böyük Oyun). Bu gün Yaxın Şərqdə enerji resurslarının bölüşdürülməsini reallaşdırmaq üçün tarix yenidən yazılır, sərhədlər yenidən cızılır və yeni düzən formalaşdırılır.

Türkiyənin müasir geosiyasəti və Yaxın Şərq regionunda geosiyasi maraqları. Geosiyasət regionların və ölkələrin dünyada yerləşməsi, onların fiziki və bəşəri coğrafi xüsusiyyətlərinə uyğun beynəlxalq siyasət və strategiyalarını müəyyənləşdirən, siyasi, iqtisadi, hərbi və mədəni ünsürləri, onların üstünlüklərini və mənfi cəhətlərini göstərən bir elm sahəsidir. Geosiyasət bir bölgənin və ya ölkənin coğrafi mövqeyindən və şəraitindən asılı olaraq həyata keçirilən milli siyasət və strategiyaları müəyyən edir. Türkiyə yerləşdiyi yerə görə keçmişdən bəri böyük təhlükələrlə üz-üzədir. Hadisələrin dinamik inkişaf etdiyi, mürəkkəb və ziddiyyətli məkanda siyasət həyata keçirməyə çalışan Türkiyə ətrafında baş verən mənfi hadisələr səbəbindən daim təhdidlərlə üzləşir. Türkiyə ətrafındakı digər strateji bölgələrlə keçmişdən bəri məqsəd və hədəfləri çox fərqli olan aktorlarla mübarizə aparır. Türkiyədən daim bu hədəfləri dəf etmək üçün sayıq olmaq tələb olunur.“Türkiyə coğrafi dərinliyi, iqtisadi, siyasi və hərbi potensialına görə qlobal güc mərkəzləri arasında balansa təsir edəcək geosiyasi gücə malikdir. Dünyadakı mühüm problemlərin kəsişmə nöqtəsində yerləşir”[3, 245]. Bu səbəbdən Türkiyə hər dövrdə dünya siyasətində özünəməxsus rol oynamışdır. Dünya siyasi tarixində iqtisadi, hərbi və sosial-mədəni baxımdan ətrafına təsir edən və yerləşdiyi məkandan təsirlənən dinamik və güclü regional aktordur.

Qloballaşan dünyada hadisələr domino təsiri ilə yayılmaqdadır. ABŞ-da yaranan, Mortgage kimi tanınan və iqtisadi böhranın yaratdığı problemlərdən hər ölkə kimi Türkiyə də təsirləndi. İnflyasiya, idxal-ixrac və maliyyə axınına mənfi təsir göstərmiş, valyuta və faiz dərəcələrində artım tendensiyası müşahidə olundu. Türkiyə “Ərəb baharı”ndan, xüsusilə Suriyada, Misir və Liviyada baş verən hadisələrə görə həm iqtisadi, həm də siyasi baxımdan çox böyük zərər gördü.

Siyasi keçmişində dəfələrlə çevrilişlərlə qarşılaşan Türkiyədə Feto terror təşkilatının 2016-cı il iyulun 15-də dövlət çevrilişinə cəhdi xalq tərəfindən dəf edildi. Bu çevrilişə cəhd, şübhəsiz ki, əvvəlkilərə oxşar olub daxili və xarici qüvvələr vasitəsilə həyata keçirildiyi də açıq-aydın göründü. Türkiyə müəyyən dövrlərdə 2018-ci ildə, 2021-ci ilin sonu və 2022-2023-cü illərdə iqtisadi böhranlar yaşadı.

Bu iqtisadi böhran xüsusilə maliyyə bazarlarında və inflyasiyada Türkiyənin maliyyə tarazlığını pozdu və iqtisadi cəhətdən geosiyasi vəziyyətinə təsir göstərdi. İnkişaf etmiş ölkələr, indi kapitalist, əvvəllər isə müstəmləkəçi və imperialist ölkələr hər zaman Aralıq dənizində və neftlə zəngin olan Yaxın Şərqdə möhkəmlənməyə səy göstərmişlər. Türkiyə bu bölgə ölkəsi kimi Qərb üçün həmişə əhəmiyyət kəsb edib. Soyuq müharibə illərində NATO üzvü olan Türkiyə xarici siyasəti, geostrateji mövqeyi ilə regionda Qərb ölkələrinin sadiq müttəfiqi imicini qoruyub saxladı.

Son illərdə Türkiyənin Aralıq dənizində təsirini və yurisdiksiyasını azaltmaq üçün yeni siyasi oyunlar gedir. Regionda əsas gücə sahib aktorların dəstəyi ilə İsrail, Yunanıstan, Misir, Livan və Liviya kimi ölkələr bu oyuna cəlb olunub. Dolayı yolla ABŞ, Rusiya, Fransa, Böyük Britaniya, Almaniya, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri və İran bu prosesdə iştirak edir. Liviya və Şimali Kipr Türk Respublikası ilə su sərhədlərini məhdudlaşdıran və müstəsna iqtisadi zona daxilində müəyyənləşdirilmiş müqaviləni imzalamaqla Türkiyə güclü bir addım atdı, meydanda və danışıqlar masasında varlığını nümayiş etdirdi. Türkiyə regionda baş verən proseslərdə iştirak etmək üçün xüsusilə, Misir və Liviya kimi ölkələrlə siyasi əlaqələr saxlayıb Aralıq dənizi sularında mövcudluğuna davam etdirməlidir.Türkiyə bunu həm region ölkəsi kimi, həm də Şimali Kipr Türk Respublikası vasitəsilə həyata keçirməlidir. Xarici siyasətdə boş yer saxlamaq yeni oyunçuların ortaya çıxması deməkdir və Türkiyə bu istiqamətdə aktiv xarici siyasət yeridir.

Dünyanın ən böyük qlobal təşkilatı - BMT-nin ilk 6 müsəlman ölkəsindən (Türkiyə, İran, İraq, Suriya, Səudiyyə Ərəbistanı və Misir) biri olan Türkiyə eyni zamanda uzun müddət NATO-nun qanad və son illərdə isə cəbhəyanı ölkəsi olmaqla beynəlxalq gücünü artırıb. Türkiyə bir tərəfdən mövcud gücünü Avropa Birliyinə, digər tərəfdən isə aypara formalı bölgəyə Rusiyaya, Qafqaza və Cənub-Qərbi Asiyada səmərəli şəkildə hiss etdirməlidir. Haradan baxsan, Türkiyə hər cəhətdən mərkəzi regionun özəyini təşkil edir. Bu səbəbdən son yüz ildə Türkiyə Qərbi Avropa, Balkanlar, 1991-ci ilə qədər Sovet İttifaqı, daha sonra Rusiya Federasiyası, Qafqaz və Yaxın Şərqdə baş verən bütün hadisələrdən təsirlənib.

Geostrategiya prizmasından baxıldığında, Türkiyə həm dünyada, həm də öz bölgəsində güclü orduya sahib bir ölkədir. "Geosiyasi və geostrateji təcrübələr bəzən siyasi coğrafiyanın hüdudlarından kənara çıxaraq siyasi, sosial və iqtisadi elmlərlə sıx əlaqəyə girir və daha çox hərbi təcrübələr vasitəsilə özünü hiss etdirir" [5, 218]. Bu prosesdə Türkiyənin geosiyasi gücü kifayət qədər dinamik və aktiv rol oynayır. Xüsusilə qlobal güc balansında müəyyənedici qüvvəyə malik olan geosiyasətin elementləri xarici əlaqələrdə, siyasətdə, iqtisadiyyatda və hərbi məsələlərdə mövcudluğunu göstərir.Yaxın Şərq və Qafqazla sıx əlaqələrə malik Türkiyə, Yaxın Şərqin və dünyanın mühüm enerji istehlakçısı olan Avropa arasında körpü olduğu üçün güclü və strateji mövqedədir. "Türkiyə bu xüsusiyyəti ilə həm neft, həm də təbii qaz kəmərləri ilə mövqeyini daha da gücləndirir" [4,104]. Rusiya-Ukrayna müharibəsində Türkiyənin vasitəçilik səyləri və ərzaq təchizatdakı dəstəyi öz regionunda və qlobal miqyasda onun rolunun artdığını göstərir.

Yaxın Şərqdəki neft və təbii qaz ehtiyatları bölgədə aktorların daim aktiv qalmasını tələb edir. Regionda geosiyasi maraqları olan güclü aktorlar heç vaxt bu bölgədə sülh və əmin-amanlıq istəməyiblər, daim xaosdan bəhrələnib, həyata keçirdikləri siyasətləri ilə bölgənin xalqlarını aciz və ümidsiz vəziyyətə salmışlar[3, 255]. Şübhəsiz ki, region dövlətlərinin siyasətçilərinin müdaxilələrə əhəmiyyət verməyərək öz gələcəklərini ölkələrinin istiqbalından üstün tutmaları xalqlarına sabitlik və xeyir gətirmədi.

Türkiyə coğrafi mövqeyinə görə siyasi dəyişikliklərə və inkişafa fərqli təsir göstərən bir ölkədir. Xüsusilə Balkanlar, Qafqazda və Yaxın Şərqdə oxşar məqsədlərə malik, lakin fərqli nəticələrə malik hadisələrdə təsirli rol oynaya biləcəyini və yeni oyun qura biləcəyini Türkiyə yeni dünya düzənində açıq şəkildə göstərməyi bacardı [6, 9]. Siyasətin təsiri, şübhəsiz ki, ölkələrin iqtisadi gücündən asılıdır. Türkiyə investisiyalar və iqtisadi siyasəti ilə bunu həyata keçirməyə çalışır. Türkiyənin başda Qafqaz, Yaxın Şərq və Afrika olmaqla bir çox bölgədə tikinti və tekstil daxil olmaqla bir çox sahədə varlığını aktiv və dinamik şəkildə inkişaf etdirdi. Bu Türkiyənin regionlarda iqtisadi və mədəni yöndən geosiyasi uğurunu göstərir.

Müasir dövrdə Qara dənizdə, Balkanlarda, Aralıq dənizində, Yaxın Şərqdə və Qafqazda bir-birindən ayrı çox müxtəlif ölçülərdə risklər və problemlər vardır. Dolayısı ilə bu vəziyyət Türkiyə üçün

böyük əhəmiyyət kəsb etməklə yanaşı, strateji gücünü və potensialını nümayiş etdirərək siyasi və hərbi sabitliyə də xüsusi önəm verir. Müdafiə sənayesinə gəldikdə isə, Türkiyə həm də İnsansız Uçuş Aparatları (türkcə: İHA) və Silahlı Pilotsuz Uçuş Aparatları (türkcə: SİHA) istehsalı ilə, xüsusən Ermənistan-Azərbaycan arasında II Qarabağ müharibəsində və Rusiya-Ukrayna müharibəsində onlardan səmərəli şəkildə istifadə etdi. Bundan əlavə, İHA və SİHA-lar Afrika və Asiya ölkələrinə də ixrac olunur. Onların satışı Türkiyənin müdafiə baxımından geosiyasi gücünü artırır və bu istiqamətdə önəmli bir aktor olmaq imkanlarını genişləndirir. Türkiyə bir tərəfdən ABŞ-la F35 döyüş təyyarələri, digər tərəfdən Rusiya ilə S400 raket sazişi imzalayıb. Bu səbəbdən ABŞ Türkiyəni F35 prosesindən kənarlaşdırıb. S400 raketlərinin bir qismi Türkiyəyə gətirilsə də, istifadə edilməməsi də ayrı bir vəziyyətdir.

Türkiyənin Yaxın Şərqdə siyasi-hərbi fəaliyyəti. Yaxın Şərq ölkələri və regionda maraqları olan böyük güclərin siyasi-hərbi fəaliyyəti geosiyasi maraqlarına uyğun həyata keçirilir. Bu planda etnik, dini amil arxa plana keçir. Regionun bir çox təhlükəsizlik problemləri var ki, onların aradan qaldırılması ilə bağlı dövlətlər arasında uzlaşma yoxdur və vəziyyəti yumşaltmağa meyllər hələ müşahidə olunmur.

Türkiyənin təhlükəsizlik qüvvələri beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq İraqın şimalında və Suriyada PKK terrorçularına və onun digər qanadı olan YPG döyüşçülərinə qarşı mütəmadi antiterror əməliyyatları həyata keçirməyə məcburdur. Türkiyə faktiki olaraq böyük güclərin arxasında durduqları və silahlandırdıqları terrorçuların regionda mövqelərini zəiflətmək yolunda fəaliyyətini davam etdirir. Lakin Türkiyənin antiterror fəaliyyəti digər müsəlman ölkələri tərəfindən dəstəklənmir və bu amil "barıt çəlləyi"nə çevrilən Yaxın Şərqdə dini, etnik, ərazi iddiaları zəminində onillər boyu nizamlanmayan bir çox ciddi problemlərin həllinə əngəl törədir. Regiondakı münaqişələri və geniş spektr təhlükəsizlik problemlərini ədalətli şəkildə həll etmək məhz geosiyasi maraqların toqquşması səbəbindən mümkün olmur.

2023-cü ilin oktyabrında HƏMAS-ın İsrailə qəfil hücumu, törətdiyi ağır zorakılıqlar regionu və bütün dünyanın diqqətini yenidən Yaxın Şərqə yönəltdi. İsrailin Qəzzaya yönəlik, ifrat xarakterli qisas hərbi əməliyyatları isə burada humanitar fəlakətə gətirib çıxardı. İnsanlıq fəlakətinin yaşandığı Qəzzanın taleyi məsələsində region ölkələrinin mövqeyi fərqlidir. Son dövrdə regional aktorlar arasında münasibətlərdə müəyyən dəyişikliklər müşahidə olunsa da, sülh yolunda ciddi irəliləyişlər hiss olunmur. Yaxın Şərqdə maraqları olan böyük güclərin münaqişənin həlli üçün "çalışması" nəticə vermir. Regionda ədalətli sülhün və təhlükəsizliyin bərqərar olunması üçün siyasi, hərbi və humanitar fəaliyyətini artıran Türkiyəni bu sahədə dəstəkləyən qüvvələr, demək olar ki, yoxdur. Türkiyə regionda baş verən təhlükəli proseslərin fərqindədir və hadisələrin daha ağır məcraya yönəldilməməsi yolunda gərgin diplomatik səylərini artırır. Türkiyə hakimiyyəti regionda vəziyyətin nəzarətdən çıxmaması üçün bütün müsəlman dövlətlərini, eləcə də Yaxın Şərqin böyük dövləti İranın səylərini birləşdirməyə çağırsa da, hələ ki, bu sahədə irəliləyiş müşahidə olunmur.

Yaxın Şərqin digər ərazilərində cərəyan edən gərgin hadisələr regionda geosiyasi maraqları olan Qərb dövlətlərinin aktivləşməsinə səbəb oldu. 2023-cü ilin payızında ABŞ və Böyük Britaniya bir neçə dəfə Qırmızı dənizdə İranın dəstəklədiyi Husilər hərəkatının hərbi və mülki obyektlərinə hava zərbələri endirdi. Husilər Qəzzadakı zorakılıqlara etiraz olaraq Qırmızı dənizdə Qərb dövlətlərinin gəmilərinə hücum edirdilər. Dünyada dəniz yolu ilə daşınan malların təqribən 10%-i Qırmızı dənizin payına düşür [1]. Qərb dövlətlərinin ciddi xəbərdarlıqlarına baxmayaraq, husilər geri çəkilmək niyyətində olmadıqlarını göstərdilər. 2024-cü ilin aprelində İsrail-İran münasibətlərinin kəskinləşməsi, qarşılıqlı hücum əməliyyatlarının aparılması regionda sabitliyin yaranmasına ümidləri heçə endirir. Yaxın Şərqdə sülh və təhlükəsizliyin təmin olunmasında maraqlı olan Türkiyənin bu ziddiyyətli və mürəkkəb geosiyasi prosesdə iştirakı və siyasəti mövcud siyasi, hərbi vəziyyətə uyğun həyata keçiriləcək. Bölgədəki gərgin proseslərin nəticələri formalaşmaqda olan yeni dünya nizamına öz təsirini göstərəcəkdir.

Nəticə. Türkiyə geostrateji mövqeyinə görə əlverişli və dinamik regionun əsas aktorlarından biri olaraq beynəlxalq nəqliyyat şəbəkəsinə inteqrasiya olunmuş sistemini tez və qətiyyətli şəkildə həyata keçirməlidir. Türkiyə yerləşdiyi yerə görə çox fərqli nəqliyyat sistemlərini, enerji də daxil olmaqla araşdırma və inkişaf (ing.: R&D studies) çalışmalarını təhsil və elmə gələcəyə investisiya qoyuluşunu vaxt itirmədən həyata keçirib geosiyasi gücünü daha da artırmalıdır. Təsir dairəsində olan dənizlər və boğazlar üzərində səlahiyyətini, su ehtiyatlarını, xüsusən də Yaxın Şərqdəki strategiyasını hidropolitik

baxımdan vurğulamalıdır. Şərqi Aralıq dənizinə gəlincə, Türkiyə Şimali Kipr Türk Respublikası və Liviya xaric, Misir və Livan başda olmaqla regionun digər ölkələri ilə daha çox siyasi mənafelərinə uyğun əlaqələr qurmalıdır. Bununla yanaşı, Türkiyə geosiyasi gücünü ticarət, siyasi və hərbi əlaqələrdə qısa müddətli deyil, uzunmüddətli perspektivi əhatə edən qətiyyətli və davamlı şəkildə rentabelli həyata keçirilməli və qazanclı olmalıdır.

Beləliklə, Yaxın Şərq Türkiyənin geosiyasətində ən mühüm region olaraq bu dövlətin xarici siyasətində prioritet təşkil edir. Türkiyə tarixən bağlı olduğu regionun əksər ölkələri ilə aktiv və dinamik siyasi, iqtisadi, mədəni-humanitar əlaqələri genişləndirməlidir. Regionun təhlükəsizlik problemlərinin həllində yaxından iştirak edib beynəlxalq hüquqi prinsiplərə uyğun olaraq siyasi-hərbi vasitələrdən uğurla istifadə etməlidir. Geosiyasi maraqları prizmasında Yaxın Şərqin Türkiyə üçün əhəmiyyəti dəyişməz olaraq qalır, o, dəyişən dünya və yeni düzənin formalaşması fonunda regionda fəal xarici siyasət və iqtisadi, hərbi təsiri artırmaq yolunda daha çox səy göstərmək məcburiyyətindədir.

ƏDƏBİYYAT

1. Yaxın Şərq münaqişəsi böyük geosiyasi dəyişikliklər üçün katalizator ola bilər (2024). URL: https://report.az/diger-olkeler/yaxin-serq-munaqisesi-boyuk-geosiyasi-deyisiklikler-ucun-katalizator-ola-biler/ [23.04.2024].
2. Османская империя в XVI - XVIII вв. (2022) Под редакции Д.Е.Макаревича. Минск, Белкартография, 2018. URL: https://dic.academic.ru/dic.nsf/ruwiki/1442859 [23.04.2024].
3. Akengin, Hamza (2019), "Siyasi Coğrafya: Jeopolitik ve Ortadoğu Jeopolitiği Üzerine Bir Değerlendirme", Beşeri ve iktisadi coğrafya araştırmaları: Prof. Dr. Nuran Taşlıgil'e Armağan, Eski Babil Yayınları, İstanbul, s.243-257.
4. Doğan, Mesut (2023), "Jeopolitik ve Türkiye", International Scientific Conference, Global Challenges – Scientific Solutions II, 14 October 2020 – Antwerp (Belgium), s.102-105.
5. Sevgi, Cezmi (2008), "Jeopolitik ve Jeostratejinin Tarihsel Gelişimi Açısından Türkiye'nin Stratejik Konumu", Ege Coğrafya Dergisi, №4(1), s.214-248.
6. Kaya, Faruk (2019), "Coğrafi Potansiyelleri Temelinde Türkiye Jeopolitiği ve Dünya Siyasetindeki Yeri", Ağrı İbrahim Çeçen Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, №3(2), s.1-14.

ЗУМРУД МЕЛИКОВА
Доктор философии по политическим наукам,
Доцент Бакинского Славянского Университета

БЛИЖНЕВОСТОЧНЫЙ РЕГИОН В СОВРЕМЕННОЙ ГЕОПОЛИТИКЕ ТУРЦИИ

Ближневосточный регион имеет геостратегическое значение, где существует широкий спектр конфликтов, которые обострились под влиянием политических и экономических кризисов и геополитических процессов, произошедших в мире. Ближневосточный регион, занимающий одно из центральных мест в геополитике Турции, сложный и противоречивый с этнической и конфессиональной точки зрения, представляет собой геополитическое пространство, которое на протяжении многих лет продолжаются многочисленные конфликты. Политические, экономические и военные интересы великих держав и государств региона пересекаются. Регион Ближнего Востока сохраняет жизненно важную геополитическую особенность для Турции. В настоящее время внешняя политика Турции на Ближнем Востоке основана на оборонительном реализме, а защита ее национальных интересов базируется на принципах международного права. Цель данного исследования – показать значение Ближнего Востока в геополитике Турции, его место в экономической, идеологической и политической борьбе, связанной с энергетикой в регионе.

Ключевые слова: Турция, Ближневосточный регион, геополитические интересы, геостратегическое положение, вопросы безопасности.

ZUMRUD MALIKOVA
Doctor on Philosophy in Political Science,
Associate Professor of Baku Slavic University

MIDDLE EAST REGION IN MODERN GEOPOLITICS OF TURKIYE

The Middle East region, which has historically been of great geostrategic importance, occupies one of the most important places in Turkey's geopolitics, where a wide range of conflicts, which have become more acute under the influence of political and economic crises and geopolitical processes. The region is complex and contradictory in terms of ethnicity and confession, it is a geopolitical space, where the political, economic and military interests of great powers and regional states intersect. The events taking place in the Middle East region have a direct impact on the political, economic, socio-cultural situation and international position of Turkey, the security problems of the region threaten the national interests of the region, are factors that increase the importance of the region for this country. The Middle East region occupies one of the central places in Turkey's foreign policy. In modern times, Turkey's foreign policy in the Middle East is based on defensive realism, and the protection of its national interests is based on the principles of international law. The purpose of this study is to show the importance of the Middle East in the geopolitics of Turkey, its place in the economic, ideological and political struggle related to energy in the region.

Keywords: Turkiye, Middle East region, geopolitical interests, geostrategic position, security issues.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 23 aprel 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 03 may 2024-cü il.
Rəyçilər: s.e.d. Sevda Əliyeva, t.e.d. Sani Hacıyev.